*Müəllifin arxivindən*

# AZADLIĞIN CƏFƏR CABBARLI YOLU

*(Əvvəli ötən sayımızda)*

"Od gəlini" əsərində bəzi Allahsız fikirlər yazılmışdır. Lakin, bu ədibin dilindən deyil. Bu, məcburən Allahsızlaşdırılan Babəkin dilindəndir. Cabbarlışünaslar həmin pyes haqqında çox tənqidi fikirlər yürütmüşlər. Cabbarlını bir irəli, iki geri addımlayan və Sovet əxlaqına aid olmayan səhnələr yazan kimi günahlandırmışdılar. Babək bu pyesdə Allahsız və ərəblərə üsyan çıxardan birisi, Aqşin isə imanlı biri kimi qələmə alınmışdır. Biz pyesi görkəmli aktyorumuz Abbas Mirzə Şərifzadənin dilindən eşitsək, orada "Mənəm Allah! Mənəm Yaradan!" kimi sözləri də eşidə bilərik. Qeyd edim ki, pyes Xürrəmi üsyanının 1100 illiyinə həsr olunmuşdur.

"Dilarə" əsərində palçıqla işləyən, borcu təzə bitmiş, kasıb Bəşirin qızı Dilarənin təhsil almasından danışılır. O, o qədər kasıb ailədən olur ki, bir çəkmə geysə, hamı təəccüblənər. Dilarə kasıblıqdan səadətə qaçarkən, məktəbə gedərkən onun və atasının ayağı elə hala düşür ki, artıq atası ölümcül şəkildə yaralanır. Axırda Dilarə bu şeylərə səbəb olduğu üçün daha çox pis olur. Bu əsər pyes olsa idi, faciə janrında yazılacaqdı.

"Dilbər" əsərində məktəbli qızların tez, həddibuluğ yaşlarına çatarkən ərə getməsindən danışılır. Bunun qurbanlarından biri də Dilbər olur. Qızların tez ərə getməsi mövzusuna Cabbarlı öz qızına yazdığı satirada toxunmuşdu. Orada satira silahını işlədərək "yaşın oldu 13, səni verrəm ərə"- misrasını yazmışdır.

"Aydın" əsəri Cümhuriyyət dönəmində yazılsa da, Sovetlər dönəmində də tanınmışdır. Çünki, oradakı Aydın Qurani-Kitaba, Allaha inanmır. Lakin, yenə də, Aydın hələ də sevilir.

Aydın romantik əsərdir. O qədər tanınır ki, Cabbarlı uşağına onun adını verir.

"Sevil" pyesi "Dilbər" əsərindən sonra çox sevilmişdir. Məhz bu əsərə görə Cəfər Cabbarlını sosializm realizminin banis adlandırırlar. Bu əsərdə qadın sosializmindən o qədər qabarıq şəkildə danışılır ki, əsər bütün qadınların çadrasız qalmasına və savadsızlıqdan təhsilə doğru qaçmasına səbəb olmuşdur. Sona xanım Cabbarlı deyərdi: "Tamaşaya gələn bütün çadralı qadınlar tamaşa bitəndən sonra çadraların atdılar. Biz heyrətləndik. "

"Sevil" qadın azadlığına yazılmış əsərdir və həmin əsər qadın azadlığının çeynənildiyi bir dövrdən qalmış qadın azadlığı nişanəsi kimi hələ də qalmaqdadır. "Almaz" əsərində kəndin çadrasız müəlliməsi Almazın həyatından bəhs edilir. Almaz da Sevil kimi tanınan pyeslərdən olmuşdur.

"Yaşar" əsəri Cabbarlının teatr və pyes sahəsində son əsərlərindən biri olmuşdur. Cabbarlının bu əsərində yenilik etmək istəyən Yaşar adlı elektromexanikdən bəhs edir. Bədaye Teatrında Yaşar rolunda Ülvi Rəcəbli oynamışdır.

Bu rolu oynayandan 5 il sonra Ülvi Rəcəbli repressiya qurbanı olmuşdu.

Lakin, pyes çox da tanınmır. Halbuki, Cabbarlı bu əsəri yazarkən neçə saat otaqda siqaret çəkərək işləyib. Bu əsəri az zamanda bitirib.

"Dönüş" əsəri Cabbarlının kinoya dönüş nöqtəsidir. Cabbarlının son pyesi olan "Dönüş" əsərində Cabbarlı o qədər teatra bağlanmışdır ki, bu əsərdə də teatrı gözəl təsvir etmişdir.

Əslində, "Dönüş" əsərindəki olan hadisələr gerçək həyatda Cabbarlının tamaşalarının qoyulduğu Bədaye Teatrında olub.

Hətta, Xosməmməd obrazı gerçək həyatda bir aktyoru təsvir edir. Həmin aktyor: Cəfər müəllim, oradakı Xosməmməd obrazı mənəm. Nə olar, obrazı çıxarın, - deyə Cabbarlıya deyir.

Cabbarlı teatra öz tərcüməsindən "Hamlet" və "Otello" əsərlərini verir. "Hamlet" əsərində o, Kroneberqin və Polevoyun tərcüməsinə istinad da etmişdir. Cabbarlı Lev Tolstoyun iki əsərini, Maksim Qorkinin də bir əsərini tərcümə etmişdir.

"Dönüş" pyesindən sonra Cabbarlı hirsini evdə elə çıxarır ki...

Sona deyir: - Nə olub, Cəfər.

- Mən birdə teatrda çalışmayacağam. Mən bir də onlarla çalışmayacağam. Onlar mənlə intriqa yaradıblar. - Cəfər artıq hirslənməyə başlamışdı.

Cabbarlı məhz bu intriqaya görə teatrdan uzaqlaşır. Ancaq o, kinoya dönür. Teatrda olduğu kimi, Cabbarlı kinoda da uğurlu işlər görmüşdür. 1927-ci ildə çəkilmiş "Balıqçılar" filmində Cabbarlı balıqçı rolunda oynayır. M. F. Axundovun eyniadlı pyesinin motivləri əsasında 1929-cu ildə çəkilən "Hacı Qara" filminin ssenaristi olur. Həmçinin, 1929-cu ildə o, bir filmi də çəkir. Bu filmin adı "Sevil"dir. "Sevil" filmi səssiz olsa da, dərin məna kəsb edir. Oradakı çadra atma səhnəsini İzzət Oruczadə evdə də çoxlu-çoxlu məşq etmişdir. Film alınır. Çox tanınır.

Maraqlıdır ki, İzzət Oruczadə sonralar daha aktrisalıq etmir. O, elmlə məşğul olur, böyük kimyaçı olur. Heç kim də inanmır ki, Azərbaycanın ilk kinoaktrisası dahi kimyaçı, akademik İzzət Oruczadədir.

Cabbarlı "Almaz" filmini də çəkmək istəyir. Ssenarilərini yazır,

Cabbarlıya qismət olmur. Cabbarlı ürək tutmasından 1935-ci ilin ilk günlərində vəfat edir. Onun dəfninə aid bir film də çəkilmişdir.

Sona xanım deyirdi ki, gecə vaxtı durduqda onun ürəyinə, nəbzinə baxdım. Çünki, həkim onun ürəyinə nəzarət olunmasını, tez-tez pereboy verdiyini, yəni, fasilə verdiyini və dayanacağını, Cabbarlının ölüm təhlükəsi ilə üz-üzə qaldığını demişdi. Sona xanım onun ürəyinə əlini qoyur.




Qoyduqdan sonra elə qışqırır ki, öz təbirincə desək, "öz səsinə öz qulağı tutulur". Artıq, bu dünyada Cabbarlı adlı dahi, bani, sani yox idi. Artıq Aydınciyi və Dülaləsi Cəfərsiz qalmışdı. Bir də, sevdiyi yarı onsuz qalmışdı. Vaxt var idi, onlar küsüşmüş, sonra barışıb evlənmişdilər. Sona xanım həmin günlərini yada salır, onun ürəyinə əlini qoyan kimi ondan, Cəfərindən, solğun üzlü solğun çiçəyindən ötrü darıxırdı.

Cəfər Cabbarlı heç unudulmadı. 1944-cü ildə "Cəfər Cabbarlı" filmində, 1969-cu ildə "Səhnə əsərləri" filmində, 1970-ci ildə "Sevil" filmində yada salınır.

Cabbarlının Sona xanım ilə evlənməyinin bir tarixi var. Onlar əvvəlcə küsülü qalmışdılar. Lakin, sonra barışmışdılar və evlənmişdilər. Onların Aydın və Gülarə adlı uşaqları dünyaya gəlmişdi.

Cabbarlı Gülarəyə Dülalə, Aydına Aydınciyim deyərdi.

Aydın Cabbarlı 1924-cü ildə anadan olub. O, atasına çox oxşayırmış. 1925-ci ildə "Bişmillah" filmində Qulunun oğlu roluna çəkilib. Filmin rejissoru Abbas Mirzə Şərifzadənin adı sonra həmin filmdən silinir. Bunun səbəbi isə Abbas Mirzə Şərifzadənin xalq düşməni elan olunması idi.

Aydın Cabbarlı gənc olanda İzzət Oruczadənin etdiyi kimi, kinoda çəkilmək istəmir. O, həkim olmaq istəyirdi.



O, Bakı Dövlət Universitetində ilk fakültəsi olan Tibb Fakültəsində oxuyur. Tibb elmləri namizədi olur. Bəxt elə gətirir ki, atası Cəfər Cabbarlının 100 illiyində vəfat edir. Atasını yada salır, sarsılır və rəhmətə gedir.

Gülarə Cabbarlı 11 fevral 1930-cu ildə Bakıda doğulur. O da Bakı Dövlət Universitetində, filologiya fakültəsində təhsil alır.

1979-cu ildə atasının adını daşıyan Teatr Muzeyinin direktoru olur. O, Aydından fərqli olaraq daha çox ömrünü Cabbarlını, atasını tanıtmağa sərf etmişdir. Onun əziyyətləri bəhrəsini vermişdir. Cabbarlını artıq daha çox araşdırırdılar. Onun əsərləri dövlət xəzinəsi kimi qorunurdu və halhazırda da qorunur.

Cabbarlı çoxlu satirik şeirlərin də müəllifidir. Onun Bədaye Teatrı haqqında çoxlu məqalələri də vardır. O, "Truppa deyir"satirik şeirdə Bədaye Teatrının intriqa yaradan truppasını sərt şəkildə tənqid etmişdir.

Cabbarlı ölməsəydi, sonuncu yazısı "Firuzə"ni Mircəfər Bağırova oxuyacaqdı. O, ölməsəydi, 1937-ci ildə onu repressiya edəcəkdilər.

Cəfər Cabbarlı "Türk sağ ikən" mahnısını bəstələmişdir. O, Şövkət Məmmədovadan, Müslüm Maqomayevdən musiqi təhsili almışdır.

Cabbarlının mühitində o qədər xadimlər vardır ki... Onlar Cabbarlıya dərs də veriblər, dərd də veriblər. Ona dərdi mühitindəki onu bəyənməyən, sifarişlə yazan adlandıranlar olub. Məktəbdə oxuyarkən mühitində Süleyman Sani Axundov, Abdulla Şaiq, Əliməmməd Mustafayev dərs verən olmuşdur.

Yazıçı olarkən Əhməd Cavadla, Hüseyn Cavidlə, Qantəmirlə, Əfrasiyab Bədəlbəyliylə, Xəlil İbrahimlə, Mikayıl Müşfiqlə, Maksim Qorkiylə, Mehdi Hüseynlə, Haqverdiyevlə, Məmməd Kazım Ələkbərliylə və bir çox yazıçılarla şəkilləri olmuşdur.

Hətta, Cabbarlı Bədəlbəyliyə dirijor çubuğu hədiyyə edib və Bədəlbəyli onun eyniadlı poemasına "Qız Qalası" baletini yazıb.

Hal-hazırda Cabbarlı həyatda olmasa da, onun adına gəmi, muzey, teatr və kinostudiya vardır. Cabbarlının "Almaz" və "Aydın"dan başqa, "Dilbər"in, "Ədirnə fəthi"nin, "Yaşar" və "Dönüş"ün tamaşaya qoyulması və ya film kimi çəkilməsi mənim ən böyük arzularımdandır. Mən Kamran adlı bir sinif yoldaşımı görərkən elə bil Cabbarlını görürəm. Cabbarlının ürəklərdə yaşadığını bilirəm. Dəfələrlə Cəfər Cabbarlıya həsr olunmuş tədbirlərində iştirak etmişəm və bunu özümə şərəf bilmişəm. Cəfər Cabbarlı Mixail Bulqakov və Daniel Defodan əvvəl mənim ilk tanıdığım ədib olmuşdur. Onu mən professor Asif Rüstəmlinin Cabbarlı haqqında yazdığı kitablar əsasında tanımışam. Əvvəl elə bilirdim, Cabbarlı elə də tanınmır, onu Asif Rüstəmli tanıdıb.

Deyə bilərəm ki, yanılmamışam. Onun haqqında çox maraqlı və bilinməyən məlumatları, məqalələri, natamam və hətta, yazılmayan pyesləri, yazılan və itən pyesləri, hətta, romanları Asif Rüstəmli tanıdıb və Cabbarlının sosialist realisti yox, əsl Cümhuriyyət realisti olduğunu sübut edib və edənlərdən biri olub!

*07.04.2019*

***Sevindik NƏSİBOĞLU***